■ Besti Berdeli

## Mən Seçilmiş Əsəriyəm Allah'ın

Zehni qoru tez düşməsin göz əldən
Fikrim, hikmət ovçusudur əzəldən
Söz dağını yonub inci düzəldən
Zer yaradan, zərgəriyəm Allah'ın.

Heç demədim bəxti kəməm, kəsiyəm
Duygu dolu ürəklərin bəsiyəm
Sevənlərə həzin nəğmə səsiyəm
Nə böhtanı, nə şəriyəm Allah'ın.

Ta binədən haqq sevənəm, dərt bölən
Nə şahınam, nə vəzirin, nə kölən
Yaranışam, nə solanam, nə ölən
Söz ətirli bəşəriyəm Allah'ın.

Acı dildən, pis əməldən gendəyəm
Zalımlara, əyrilərə rəndəyəm
Sevə, sevə yaratdığı bəndəyəm
Nə dərdiyəm, nə səriyəm Allah'ın.

Ruhum oldu, cismim, canım olmadı
həqiqətdən özgə yanım olmadı
Sona qədər oxuyanım olmadı
Mən seçilmiş əsəriyəm Allah'ın.